

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 237 (20.891)

18 dekabr 2013-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Dekabrın 17-də Bakıda, Heydər Əliyev Mərkəzində "Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak etmişlər.

Dövlətimizin başçısı mərasimdə çıxış etdi.

Sonra Albaniyanın Baş naziri Edi Rama, Bolqarıstanın Baş naziri Plamin Orişarski, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Xorvatiyanın Baş naziri Zoran Milanoviç, Monteneqronun Prezidenti Filip Vuyanoviç, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının xarici işlər naziri Uilyam Heyq, İtaliyanın xarici işlər naziri Emma Bonino, Türkiyənin enerji və təbii sərvətlər naziri Taner Yıldız, Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger, ABŞ-ın enerji nazirinin köməkçisi vəzifəsini icra edən Conatan Elkind, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, bp şirkətinin baş icraçı direktoru Robert Dadli çıxış etdilər.

Sonra sənədlər imzalandı.

"Azərbaycan Respublikası, Albaniya Respublikası, Xorvatiya Respublikası və Monteneqro arasında Cənub-Şərqi Avropada "Cənub" qaz dəhlizinin həyata keçirilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu", "Şahdəniz-2" üzrə yekun investisiya qərarı imzalandı.

Bununla da, "Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması mərasimi başa çatdı.




## Heydər Əliyev Muzeyində növbəti açıq dərs keçilib

"Azərbaycan dövlətçiliyini, xalqımızın müstəqilliyini əbədi yaşatmaq üçün ulu öndərimizin irsi, onun dövlət idarəçiliyi təcrübəsi misilsiz mənəvi xəzinədir. Dahi rəhbər Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi daim yaşayacaqdır. Ümummilli lider kimi onun adı Azərbaycan xalqının 40 ildən çox bir dövrü əhatə edən tarixinin rəmzinə çevrilmişdir. "Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi" kimi qiymətləndirilən bu dövrdə ulu öndərimiz tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanı əldə etmiş, xoşbəxt gələcək üçün bütün təminatlar yaradılmış, ən başlıcası isə siyasi və iqtisadi müstəqilliyə nail olunmuşdur".

Bu fikirlər Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində keçilən açıq dərsdə səsləndirilmişdir.

Babək rayonunun Qaraqala və Məzrə kənd tam orta məktəbləri şagirdlərinin iştirak etdiyi açıq dərsdə Məzrə kənd tam orta məktəbinin tarix müəllimi Abdulla Həsənov bildirmişdir ki, xalqımızın ümummilli lideri, Azərbaycan dövlətinin yaradıcısı və qurucusu, dahi rəhbər Heydər Əliyevin əziz xatirəsi hər bir azərbaycanlının qəlbində əbədi yaşayacaqdır.



Qeyd edilmişdir ki, dahi rəhbərin adı Azərbaycanın rəmzinə, əməlləri isə hünər timsalına çevrilmişdir. Ulu öndərin sarsılmaz polad iradəsi və qətiyyəti, xalqın tərəqqisi yolunda yorulmaq bilmədən fəaliyyəti, fədakar əməyi sayəsində müasir Azərbaycanın bünövrəsi qoyulmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycanın sosial-iqtisadi və siyasi əsaslarının möhkəmləndirilməsində, dünyanın aparıcı dövlətlərinin etibarlı tərəfdaşına çevrilməsində böyük işlər görmüşdür. Onun həm keçmiş sovet dönəmində, həm də müstəqil Azərbaycanda həyata keçirdiyi layihələri, reallaşdırdığı bütün işləri sadalamaqla qurtaran deyil. Xalqımızın böyük oğlu Heydər Əliyev millətini bütün bəlalardan hifz etmiş, respublikada ictimai-siyasi sabitliyə nail olmuş, vətəndaş qarşıdurmasını aradan qaldırmış, ölkənin parçalanmasının qarşısını almaqla milli qurtuluşu təmin etmişdir. Bu böyük siyasət nəhənginin hakimiyyətə qayıdışı xalqımız üçün çox ağır bir dövrə təsadüf etmişdir. Lakin polad iradəli dahi şəxsiyyət böyük sərkərdə dühası ilə gənc, müstəqil Azərbaycanı xaos və anarxiyadan, vətəndaş müharibəsi təhlükəsindən ustalıqla xilas edərək ölkəmizi tərəqqiyə, yüksəlişə, davamlı sabitliyə qovuşdurmuş, onu hüquqi, demokratik dövlət quruculuğu yoluna çıxara bilmişdir. O, bütün həyatı boyu daim ümumxalq mənafeyindən çıxış etmiş, hakimiyyətdə olduğu hər iki mərhələdə eyni əzmlə çalışmış, qarşıya qoyduğu hədəflərə çatmaq üçün bütün gücünü və siyasi nüfuzunu səfərbər etmişdir.

Bildirilmişdir ki, 1993-cü ilin iyunundan etibarən ölkədə ictimai-siyasi sabitliyi təmin edən böyük strateq özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında həm də Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirmiş, bu sahədə mövcud problemlərin həlli yollarını göstərmişdir. Ümummilli liderimizin 1993-cü ilin iyununda siyasi hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik xalqımızın ən qiymətli mənəvi-ideoloji sərvətinə çevrilmişdir. Bugünkü güclü, qüdrətli Azərbaycanı O, öz əlləri ilə qurub-yaratmış, inkişaf etdirib bütün dünyaya tanıtmışdır. Ulu öndər ölkəmizin siyasi, sosial-iqtisadi inkişaf konsepsiyalarını işləyib hazırlamış və reallaşdırılmasını təmin etmişdir. Ona görə də xalqımız Heydər Əliyev kimi ümummilli lideri ilə fəxr edir, qürur duyur, Onun ideyalarını həyata keçirməyə çalışır. ***"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizin, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət olub"***, – deyən ulu öndər Heydər Əliyevin dövlətçiliyimizin ən ağır günlərində göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyir. Əsl vətəndaş, tarixi şəxsiyyət və ümummilli lider kimi Heydər Əliyev millətini, torpağını fəlakətdən qurtarmış, onu dirçəliş və inkişafa doğru yönəltmiş, cəmiyyətdə özünəinam hissini bərpa etmiş, ölkəmizdə sabitlik və firavanlığa təminat yaratmışdır.

Açıq dərsdən sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olmuşlar.

**Səbuhi HÜSEYNOV**

## Sosial rifahın təminatında məşğulluq probleminin həlli başlıca yer tutur

### *Cari ildə də muxtar respublikada bu istiqamətdə məqsədyönlü tədbirlər diqqət mərkəzində saxlanılıb*

***Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi muxtar respublikada həyata keçirilən sosial tədbirlərin tərkib hissəsidir. Muxtar respublikamızın iqtisadiyyatında dinamik inkişafın təmin olunmasının nəticəsidir ki, tikinti-quraşdırma işlərinin həcmi artmış, yeni istehsal, emal müəssisələri və xidmət sahələri yaradılmış, minlərlə yeni iş yerləri açılmışdır.***

Əhalinin məşğulluğunun təmin olunmasında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Məşğulluq Xidməti də mühüm rol oynayır. Cari ilin 11 ayı ərzində muxtar respublika sakinlərinin məşğulluğunun təmin olunması məqsədilə aktiv sosial müdafiə tədbirlərinin, o cümlədən işaxtaran vətəndaşların münasib işlə təmin edilməsi, onların haqqı ödənilən ictimai işlərə cəlb edilməsi, peşə hazırlığı, yenidən hazırlıq və ixtisasartırma sahəsində ardıcıl tədbirlər davam etdirilmişdir.

Cari ilin 11 ayı ərzində işaxtaran vətəndaşların əmək fəaliyyətinə cəlb olunması diqqət mərkəzində saxlanılmış, rayon(şəhər) məşğulluq mərkəzləri tərəfindən 2938 nəfər işaxtaran qeydiyyata alınmışdır ki, bunlardan da 2488 nəfəri müxtəlif sahələrdə işlə təmin olunmuşdur.

Məşğulluq xidməti orqanlarına müraciət etmiş işaxtaran vətəndaşların münasib işlə təmin edilməsinin nəticəsidir ki, qeyd edilən dövr ərzində məşğulluq xidməti orqanları tərəfindən işsizlik statusu verilməmiş, işsizlik müavinətinin təyinatı aparılmamışdır.

Gənclərin və qadınların məşğulluğunun təmin olunmasına da diqqət artırılmışdır. Belə ki, qeyd olunan dövrdə işə düzələnlərin 1014 nəfərini gənclər, 560 nəfərini qadınlar təşkil etmişdir.

2013-cü ilin on bir ayı ərzində 392 nəfər peşə hazırlığı kurslarına, 300 nəfər haqqı ödənilən ictimai işlərə cəlb edilmişdir. Bu müddət ərzində məşğulluq xidməti orqanları tərəfindən aktiv məşğulluq tədbiri kimi əmək yarmarkalarının hazırlanıb keçirilməsinə ciddi önəm verilmişdir. Cari ilin ötən dövrü ərzində 4 dəfə rayon mərkəzlərində və Naxçıvan şəhərində əmək yarmarkaları keçirilmiş, bu yarmarkalarda, ümumilikdə, 904 nəfər peşə və ixtisasına uyğun, təhsil və səhiyyə işçiləri üçün keçirilmiş əmək yarmarkalarında isə 111 pedaqoji kadr və 16 tibb işçisi daimi işlə təmin olunmuşdur.

Gənclərin müxtəlif peşələrə meyil və maraqlarını inkişaf etdirmək istiqamətində tədbirlərin keçirilməsi də diqqət mərkəzində olmuşdur. Bu məqsədlə Naxçıvan şəhərində fəaliyyət göstərən məktəblərin 511 şagirdi peşəyönümü kabinetində keçilən məşğələlərə cəlb olunmuşdur.

Əlil və ahıl vətəndaşların fərdi məşğulluğunun təmin edilməsi, maddi rifahının yüksəldilməsi məqsədilə onlar tərəfindən yun corabların toxunması təşkil edilmişdir. Ümumilikdə, hərbi hissələrə bu qəbildən olan insanlar tərəfindən toxunan 5000 cüt yun corab təhvil verilmişdir.

Əmək bazarında tələb və təklif arasında tarazlıq yaranmasında mühüm rol oynayan Naxçıvan Regional Peşə Tədris Mərkəzini qeyd olunan dövr ərzində 292 müdavim bitirmiş və hazırda 64 nəfərə müvafiq peşə ixtisasları üzrə peşə təlimi keçilir.

Həyata keçirilən müxtəlifistiqamətli sosial tədbirlər muxtar respublika sakinlərinin sosial rifahının daha da yaxşılaşdırılmasına xidmət edən tədbirlərin davamlı xarakter almasını göstərməklə dövlət qayğısının ifadəsi kimi dəyərləndirilir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş vəzifələrin cari ildə də uğurla davam etdirilməsinin

## Muxtar respublikanın torpaq mülkiyyətçiləri cari ili uğurla başa vururlar

### *Uğurların qazanılmasında hərtərəfli dövlət qayğısı başlıca amildir*

nəticəsidir ki, bu sahədə xeyli uğurlara nail olunub. 2013-cü ilin məhsulu üçün muxtar respublikada, ümumilikdə, 60 min 120 hektar sahədə əkin işləri həyata keçirilib. Bunun 35 min 324 hektarını taxıl təşkil edib. Taxıl biçini kampaniyasının mütəşəkkil başa çatdırılması üçün 115 ədəd kombayn saz vəziyyətə gətirilib, biçin mövsümündə 101 ədəd kombaynın gücündən istifadə edilib, taxıl sahələrindən 102 min 960 ton məhsul toplanılıb. Toplanılan məhsulun 77 min 218 tonu buğda, 25 min 742 tonu isə arpa olub. Məhsuldarlıq 29,1 sentnerə çatdırılıb. Əkinçiliyin digər sahələrində də qazanılan nəticələr qənaətbəxşdir. 2957 hektar sahədə kartof əkini aparılıb, sahələrə aqrotexniki qaydalar əsasında qulluq göstərilib. Çəkilən zəhmət hədər getməyib. Torpaq mülkiyyətçiləri 41 min 296,8 tondan çox məhsula sahib olublar.

Əkinçiliyin inkişafında müstəsna rol oynayan su təsərrüfatı sahəsində görülən işlər böyük əhəmiyyət kəsb edir. Cari ildə muxtar respublikada nasos stansiyalarının, subartezian quyularının, kəhrizlərin təmir və bərpası diqqət mərkəzində saxlanılıb. Meliorasiya və su təsərrüfatı sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi bol məhsul götürülməsinə stimul olub. Son illər muxtar respublikamızda suvarma əkinçiliyində, əsasən, şırım üsulundan geniş istifadə edilir. Cari ildə fərdi və kollektiv təsərrüfatlarda taxıl, kartof, bostan məhsullarının becərilməsi zamanı bu usula üstünlük verilib.

**Muxtar MƏMMƏDOV**

# Milli Ordumuzun qurucusu

***Milli tariximizin istənilən dövrünə nəzər salsaq, xalqımızın azadlığı və dövlətçiliyi uğrunda mübarizəsinin şahidi olarıq. Tariximizin səhifələrinə qürurla yazılan 1918-ci il həm də ona görə önəmlidir ki, Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk yaranmış müstəqil dövlət idi. Həmin dövrdə bu müstəqil dövlətin bütün atributları, o cümlədən Milli Ordumuz formalaşdırılmışdır. Cəmi 23 ay yaşamasına baxmayaraq, milli hökumət həm ermənilərin, həm də bolşeviklərin işğalçılıq siyasətinə qarşı ciddi mübarizə aparmışdır. Ancaq təəssüflər olsun ki, ölkəmizin bolşeviklər tərəfindən işğal olunması demokratik hökumətin süqutuna, milli ordu hissələrinin ləğv edilməsinə gətirib çıxardı.***



Azərbaycanda ordu quruculuğu prosesi 1918-1920-ci illərdə aparılsa da, ordu yaratmaq zərurəti bütün dövrlərdə zəruri olmuşdur. Ermənilərin həmişə göz dikdikləri Azərbaycan torpaqları müzakirə mövzusuna çevrilərək hər an işğaledilmə, təcavüzə uğrama qorxusu ilə üz-üzə qalmışdır. Bütün bunlarla mübarizə aparan qüvvə isə böyük bir ordu yox, lakin bir ordunu belə əvəz edəcək dahi Heydər Əliyev idi.

Hamımıza məlumdur ki, ulu öndər Heydər Əliyevin fəaliyyətinin müəyyən bir hissəsi təhlükəsizlik orqanlarında xidmətlə bağlı olmuşdur. Məhz böyük imperiyanın ən güclü vaxtlarında belə, bu böyük sərkərdə öz qətiyyəti, bacarığı ilə Vətəninə qarşı həyata keçirilən mənfur planların qarşısını müvəffəqiyyətlə ala bilmişdir. Hər birimizin bilməli olduğumuz bu hadisələrin, sadəcə, biri haqqında məlumat vermək, düşünürəm ki, oxucularımız üçün də maraqlı olar. 1967-ci ilin əvvəllərində erməni-daşnak dairələri və təxribatçıları tərəfindən əvvəlcədən hazırlanan plana əsasən, Dağlıq Qarabağda milliyyətcə erməni olan bir nəfər qətlə yetirilir. Ermənilər həmin qətl hadisəsi ilə bağlı məhkəmə iclasının keçirildiyi zala girərək şübhəli şəxs kimi həmin prosesdə dindirilən 2 azərbaycanlını zorla mühafizəçilərin əlindən alıb xüsusi amansızlıqla öldürürlər. Təqsirləndirilən, lakin sonradan bəraət almış digər azərbaycanlı isə dustaq maşını ilə birlikdə yandırılır. Burada əsas məqsəd hadisələri qızışdırıb milli zəminə yönəltmək, nəticədə, azərbaycanlıların bütün Qarabağ ərazisindən köçürülməsinin və ərazinin Ermənistana birləşdirilməsinin təməlini qoymaq idi. Lakin Azərbaycan təhlükəsizlik orqanlarının çevik müdaxiləsi nəticəsində bu hadisələrin qarşısı qısa müddətdə alınmışdır. Təxribat zamanı xüsusi fəallıq göstərən 20 nəfər milliyyətcə erməni olan şəxs həbs edilmişdir. İşin istintaqı şəxsən ulu öndər Heydər Əliyevin nəzarətində idi. O, bu məqsədlə Xankəndinə gedərək 15 gün orada qalmışdı. Araşdırmalar göstərmişdi ki, Dağlıq Qarabağda baş verən hadisələrin əksəriyyəti ermənilərin xarici daşnak havadarlarının təhriki ilə Ermənistandan gəlmiş emissarlar tərəfindən törədilir. Ulu öndərin təşəbbüsü ilə bu məsələ Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosuna çıxarılaraq ətraflı müzakirə edilmiş, vilayət rəhbərliyinin bu məsələyə laqeyd yanaşması, işlərindəki ciddi qüsur və nöqsanlar tənqid olunmuş, məsələ ilə bağlı gələcək adekvat tədbirlər müəyyənləşdirilmişdi.

Diqqət edək, hadisələrin böyük əksəriyyəti 1960-70-ci illərdə baş verir. Bu dövrlər SSRİ-nin inkişaf edən qızıl dövrü, fərqli millətlərin "xalqlar dostluğu" çətiri altında "firavan yaşadıqları" zamanlar idi. Təbii ki, təhlükəsizlik orqanlarının ulu öndərin təşkilatçılığı və rəhbərliyi altında keçirdikləri əməliyyatlardan cəmiyyətin xəbəri olmurdu. Ancaq dahi rəhbər bütün bu hadisələri müdrikcəsinə təhlil edərək yeni ümummilli planlarını həyata keçirməyə başlayır – qeyd olunan hadisədən 3 il sonra, 1971-ci ildə Bakıda hərbi təmayüllü internat məktəbinin açılmasına nail olur. Məktəbi açdırmaq özlüyündə nə qədər riskli olsa da, məktəbə 15 il bundan əvvəl bəraət almış "xalq düşməni"nin adını vermək də böyük cəsarət tələb edirdi. Burada haşiyə çıxaraq hörmətli oxuculara bildirim ki, o vaxt SSRİ-də iki belə məktəb vardı: Naximov və Suvorov adına hərbi təmayüllü məktəblər. Üçüncü belə məktəbin Azərbaycanda yaradılmasının əsas məqsədini ermənilər də, sovet rəhbərliyi də yaxşı anlayırdı. Ona görə də Bakıya ciddi təzyiqlər başlandı. Ermənilər açıq-aşkar deyirdilər ki, bu məktəb bağlanmalı və Yerevanda açılmalıdır. Mərkəzə məktublar, teleqramlar göndərirdilər ki, Bakıda açılan bu məktəbi bağlatsınlar. Təlaş içində olan Moskva hesab edirdi ki, belə bir məktəbi bağlamaq onlar üçün çox asandır. Lakin Heydər Əliyev şəxsiyyəti qarşısında düşünməli oldular. Ona görə də hüquqi yol axtarmağa başladılar. Məktəbin lüzumsuzluğunu sübut etmək üçün SSRİ Müdafiə Nazirliyi general-leytenant Topovu Bakıya ezam edir. Ümummilli lider Heydər Əliyevin tapşırığı ilə xüsusi komissiya yaradılır. Topovun irəli sürdüyü hər bir dəlilin qarşısına çoxsaylı faktlar çıxarılır. O, açıqca deyirmiş ki, mən mərkəz qarşısında cavab verməliyəm. Məktəb bağlanmalıdır... Axır ki, komissiya işini bitirir. Sonda Topovu dahi şəxsiyyət özü qəbul edir. Bu yüksəkrütbəli hərbçi, bəlkə də, ilk dəfə idi ki, mərkəzin tapşırığını yerinə yetirməmiş Moskvaya qayıdırdı. Beləliklə, Kreml dahi Heydər Əliyevin məntiqi qarşısında geri çəkilməli oldu. C.Naxçıvanski adına məktəb yaşadı, inkişaf etdi. Yalnız müstəqilliyimizin bərpasından sonra dərk etdik ki, bu məktəbin yaradılmasında məqsəd nədən ibarət olmuşdur. Maraqlı bundadır ki, o zamanlar sovet ordusu sıralarına Azərbaycandan hər il 60 mindən çox gənc çağırılırdı. Lakin sırf təsadüflər istisna olmaqla, onların çoxu inşaat batalyonlarında xidmət etməli olurdu. Buna görə də ümummilli lider Heydər Əliyev ordu quruculuğunda hərbi təhsilin rolunu çox yüksək qiymətləndirir, alitəhsilli kadrlar olmadan gələcəkdə heç nəyə nail olunmayacağını gözəl bilirdi. Buna görə də azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasının himayədarı da ulu öndər özü idi.

Bir məqamı vurğulamaq lazımdır ki, ordu quruculuğundan bəhs edərkən yalnız Müdafiə Nazirliyinə məxsus ordu birləşmələrindən bəhs etmək düzgün olmaz. Ulu öndərin böyüklüyü onda idi ki, o, digər bölmələr – dövlət təhlükəsizlik və onun tərkibində olan sərhəd birləşmələri, hərbi dəniz qüvvələri, aviasiya və digər birləşmələrdə də kadrların milliləşdirilməsi işinə başlamışdı. Hər vəchlə keçmiş SSRİ-nin müxtəlif ali hərbi məktəblərinə göndərilən azərbaycanlı gənclərin sayı artırılmış, onların orduda zabit kimi xidmətləri diqqətdə saxlanılmışdır. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra həmin zabitlərin böyük əksəriyyəti ulu öndərin çağırışı ilə Silahlı Qüvvələrimizin bərpası və torpaqlarımızın müdafiəsində yaxından iştirak etmişlər. Yeri düşmüşkən bir faktı da diqqətə çatdırmaq istərdim. Görkəmli dövlət xadimi Heydər Əliyevin Sovet İttifaqı dövründəki fəaliyyətində dövlət sərhədinin mühafizəsi məsələləri, sərhədçilərin yerli əhali ilə və qarşılıqlı əlaqədə olduqları sovet və partiya orqanları ilə dostluq münasibətlərinin möhkəmləndirilməsi prosesləri mühüm yer tutmuşdur. Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin rəhbəri vəzifəsində çalışarkən ulu öndər sərhəd mühafizəsinin yerli ərazilərin inkişafı ilə bağlı şəkildə təmin olunması məsələsini uğurla həll etmişdir. Bu məsələ ilə bağlı konkret fakta nəzər salaq: 60-cı illərin ortalarında SSRİ Sərhəd Qoşunlarının rəisi, general-polkovnik P.İ.Zıryanov dövlət sərhədinin mühafizə sistemində və təşkilati strukturunda köklü islahatlar aparmaq fikrinə düşür. Bu məqsədlə dəstələrdə, qarnizon və şəhərciklərdə böyük tikinti işləri aparılmalı idi. Bu cür tikintinin Naxçıvan Sərhəd Dəstəsinin qarnizonunda da aparılması nəzərdə tutulmuşdu. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin Sərhəd Qoşunları Baş İdarəsi belə bir təkliflə çıxış edir ki, Naxçıvan şəhərindəki mövcud qarnizon tam şəkildə respublikaya verilsin, əvəzində isə yeni qarnizonun tikilməsi üçün lazımi torpaq sahəsi ayrılsın və müəyyən qədər tikinti materialları ilə köməklik göstərilsin. Bu variantı öyrənmək məqsədilə bir-birinin ardınca SSRİ Dövlət Təhlükəsizlik Komitəsi Azərbaycana 3 dəfə komissiya göndərir. Həmin komissiyalar bu qənaətə gəlirlər ki, yeni bir qarnizon tikməyə ehtiyac yoxdur. Mövcud qarnizondakı binaların 20-25 faizini sökmək və yeni binalar tikməklə xeyli maliyyə vəsaitinə qənaət etmək olar. Lakin bu variantla müasir tələblərə cavab verən yeni qarnizon yaradıla bilməzdi. Çünki inzibati, yataqxana, tədris, təsərrüfat, yaşayış binalarını planlı və ayrı-ayrı yerləşdirmək mümkün olmayacaqdı. Dörd ay davam edən müzakirənin sonunda dahi şəxsiyyət Heydər Əliyev işə qarışır və Dövlət Təhlükəsizlik Komitəsinin sədri kimi öz fikrini aydın dəlillərlə əsaslandırır. Yalnız bundan sonra Naxçıvanda tamamilə yeni qarnizonun tikilməsi mümkün olur və bu gün "Naxçıvan" Sərhəd Diviziyasının yerləşdiyi qarnizon kompleksi tikilir. Sonralar Naxçıvan Sərhəd Dəstəsinin əsgər və zabitləri ilə görüşündə ulu öndər deyəcəkdi: ***"Mən bu sərhəd dəstəsini yaxşı tanıyıram. Gənc ikən, Naxçıvanda oxuyarkən sərhədçilərə çox maraq göstərər və bəzən bu sərhəd dəstəsinin ayrı-ayrı hissələrinə gedərdim. Sonra Azərbaycanın rəhbəri işləyərkən respublikanın sərhədlərində olanda mütləq sərhəd dəstələrinə baş çəkərdim. Naxçıvan Sərhəd Dəstəsində də dəfələrlə olmuşdum. Sərhəd dəstəsinin, onun qərargahının məhz burada yerləşməsi və bu binaların tikilməsi, böyük bir şəhərciyin yaranması da o vaxt mənim bilavasitə iştirakımla olmuşdur. Hətta bu şəhərciyi yaratmaq üçün Azərbaycan Respublikasının büdcəsindən böyük vəsait ayırmışdıq və bu binaların, kompleksin yaranmasına nəinki kömək etmişdik, demək olar, onu özümüz yaratmışdıq".***

Deməli, bu gün ordu quruculuğundan danışarkən, düşünmək olmaz ki, bu prosesə yaxın 20 ildə başlanılmışdır. Böyük sərkərdə Heydər Əliyevin uzagörənliyi ilə uzun illər əvvəl bu sahədə infrastruktur yaradılmışdı. Ancaq bəzən taleyin sərt sınaqları da olur. Ümummilli liderin Moskvadan doğma yurduna qayıdışı elə bir tarixi dövrə təsadüf edirdi ki, Vətən torpaqları od tutub yanırdı. Yenicə bərpa edilmiş müstəqillik uçuruma doğru yuvarlanmaqda idi. Vətəndaş müharibəsi baş qaldırmışdı. Azərbaycan faktiki olaraq nəinki çökməkdə, hətta xəritədən silinmək qorxusu ilə üz-üzə qalmışdı. Məhz belə bir zamanda Böyük Sərkərdə böyüyüb boya-başa çatdığı Naxçıvan torpağında ordu quruculuğu prosesini yeni mərhələyə çıxarmış oldu. 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra qısa müddət ərzində bu prosesi daha da irəliyə apardı. Ordu quruculuğu sahəsində yaxın 20 il ərzində görülən işlər isə hamımıza aydın olduğundan yazını burada yekunlaşdırmaq istərdik.

***Sonda bir şeyi qeyd etmək istərdik ki, ümummilli lider, Böyük Sərkərdə Heydər Əliyevin ideyaları Azərbaycanın yenilməz Silahlı Qüvvələrini bu gün dünyanın ən güclü orduları sırasına çıxarmışdır. Bizim hər birimiz isə bu ideyaların sadiq əsgərləriyik!***

**Səbuhi HƏSƏNOV**

***Çağdaş Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyev dünya tarixində özünəməxsus rol oynamışdır. Onun Azərbaycan xalqına bəxş etdiyi ən böyük sərvət Azərbaycan dövlətinin sarsılmaz dövlət müstəqilliyi olmuşdur. Bununla belə, ulu öndər Heydər Əliyevin siyasi missiyası tək Azərbaycanla məhdudlaşmamış və buna görə də Onun adı dünyəvi siyasətin tarixi xəzinəsinə əbədi olaraq həkk edilmişdir.***

# Azərbaycanın əbədi rəmzi

Dünya tarixinə bir çox siyasətçilərin adı düşmüşdür... Lakin tarix onların hamısına eyni qiyməti verməmişdir. Tarixi yazan tarixçilər, yaradan isə siyasətçilərdir. Dünya tarixinə adı düşmüş siyasətçilərə yekun siyasi qiyməti yenə də tarixçilər verir. Bu qiymətin təbiəti siyasətçinin öz xalqına və bəşəri inkişafa göstərdiyi təsirindən asılı olur.

Təsadüfi deyil ki, dünyanın ən nüfuzlu tarixçi alimləri xalqımızın böyük oğlu Heydər Əliyevi Mustafa Kamal Atatürk, Otto fon Bismark, Avraam Linkoln kimi qüdrətli siyasətçilərlə yanaşı tuturlar. Adıçəkilən şəxsiyyətlərin fəaliyyətində eyni məqamlar, paralellər var: dövlətin siyasi bütövlüyünü bərqərar etmək, daxildə əmin-amanlığa nail olmaq, vətəndaşların siyasi hüquqlarını qorumaq, xalqın maddi vəziyyətini, həyat səviyyəsini, eləcə də ölkənin siyasi nüfuzunu yüksəltmək və bu kimi digər pozitiv məqamlar.

Dahi şəxsiyyət Heydər Əliyev dünya miqyaslı siyasətçi idi. 1997-ci ildə Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə təşkil edilmiş rəsmi ziyafətdə belə söyləmişdir: "Siz tək Azərbaycanı deyil, bütün dünyanı idarə etməyə qadir bir şəxsiyyətsiniz!" Burada xüsusən qeyd ediləsi və olduqca incə bir məqam var ki, belə bir etiraf dünya tarixində heç kimə bildirilməmişdir!

Görkəmli dövlət xadimi Heydər Əliyev Yer kürəsinin 1/6 hissəsinə hakim olan dövlət rəhbərlərindən biri olmuşdur. O zaman Moskvada olanda milliyyətcə rus olan yerli sakinlərdən şəxsən eşitmişdim: "Bizim atamız Heydər Əliyevdir..." Adi bir epizoddur, amma böyük məqamlardan xəbər verir!

Ulu öndər Heydər Əliyevin bir sıra Yaxın Şərq və Asiya dövlətlərinə etdiyi sülhməramlı səfərlərdə onilliklərlə düyünə düşmüş siyasi məsələlər öz həllini tapmışdır.

Tanınmış Amerika politoloqu Henri Alfred Kissincer ümummilli lider Heydər Əliyev haqqında demişdir: "Dünyanın siyasi tarixində Heydər Əliyev kimi siyasətçilərin olması olduqca nadir bir haldır. Biz Heydər Əliyevlə eyni ildə, 1923-cü ildə anadan olmuşuq. Buna görə də, demək olar ki, eyni siyasi staja, illər boyunca hər cür sınaqdan keçmiş bir təcrübəyə malikik. Səmimi etiraf etməliyəm ki, Sovetlər Birliyi rəhbərliyində demokratik baxışlarına görə ən düzgün mövqedə duran məhz Heydər Əliyev idi. Sovet hakimiyyətinin ən strateji və geosiyasi məsələlərinin həllində Heydər Əliyev əvəzedilməz bir siyasətçi idi. Sonralar Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi də tarixi qanunauyğunluqdan irəli gəlir. Bütün maneələrə baxmayaraq, Qafqaz regionu uğrunda gedən böyük "siyasi oyunlar" mühitində O, Azərbaycanı regionun ən güclü və aparıcı bir dövlətinə çevirməyi bacardı. ABŞ ilə Azərbaycan arasında strateji əməkdaşlığın əsasını da məhz Heydər Əliyev qoymuşdur. Ümumiyyətlə, Heydər Əliyev şəxsiyyət kimi bir fenomendir!"

Dünyada təsadüfi heç nə olmur, hər nə varsa, zərurətdən doğur... Bu elmi-fəlsəfi həqiqəti rəhbər tutaraq dahi şəxsiyyət Heydər Əliyevin məhz qədim Naxçıvan diyarında dünyaya gəlməsini də təsadüf hesab etmək olmaz... Qədim yazılardan bir çoxunda Naxçıvanın "Nuhun şəhəri" kimi daha qədim bir adına təsadüf edilir. Bu haqda İ.Şopen, Dyubua-de Monpere, K.A.Nikitin və V.M.Sısoyev kimi alim və tədqiqatçılar da müvafiq məlumatlar vermişlər. Əfsanəyə görə, dünya tufanı zamanı Həzrəti Nuh Peyğəmbərin gəmisi Naxçıvanda lövbər salmışdır. Əfsanələr boş yerdən yaranmaz! Belə ki, dünyanın ən nüfuzlu tarixi mənbələri ulu Naxçıvanı müasir bəşəriyyətin beşiyi hesab edir. Xalqımızın böyük oğlu Heydər Əliyev kimi böyük bir simanın məhz bu diyarda həyata göz açması da əsrlər boyu ciddi bir tədqiqat mövzusu olacaq.

Dekabrın 12-də 50 milyonluq Azərbaycan xalqı öz ümummilli liderini anmaq üçün bir qibləyə gəldi. 50 milyon döyünən ürək, 50 milyon düşünən beyin, 50 milyonluq bir vəhdət! Deyirlər, insan dünyaya iki dəfə gəlir... İnsanın ilk doğum günü onun anadan olduğu gün, ikinci doğum günü isə onun əbədiyyətə qovuşduğu gündür. Lakin bir bəşər övladı kimi ümummilli lider Heydər Əliyev tək əbədiyyətə qovuşmadı, əbədiyyətin özünə çevrildi. Onun adı Azərbaycanın dövlət bayrağı, gerbi, himni kimi əbədi bir dövlət rəmzi oldu!

**Elşən NƏSİROV**

# Ekoloji tarazlığın qorunduğu iqtisadi tərəqqi regionu

***Məşhur fransız alimi və təbiətşünası Jan Batist Lamark deyirdi: "Sanki müasir insanın əsas məqsədi əvvəlcə Yer kürəsini yararsız hala salmaq və nəhayət, özünü məhv etməkdir". Hələ XIX əsrin əvvəllərində sürətlə sənayeləşməkdə olan Avropada baş verən prosesləri görən, kor-koranə inkişaf və sənayeləşmənin gələcək fəsadlarını bilən Lamarkın bu fikirləri sonradan sənayeləşməkdə olan ölkələrdə özünü büruzə verdi. Dəniz və çay sahillərində, sənaye zavodlarının ətrafında yaranan ölü sahələr, çirklənmiş hava, su və torpaq – ümumilikdə, təbiət insanlardan acı intiqam almağa başladı. İnsan ömrü getdikcə qısalmağa, müxtəlif xəstəliklər sürətlə yayılmağa başladı. Beləliklə də, minilliklər boyu bəşəriyyətə qarşılıqsız olaraq qayğı göstərmiş ana təbiət bəşər övladından qayğı tələb edirdi.***





Elə Azərbaycan da əsas ekoloji problemlərlə XIX əsrdən üzləşib. Sürətlə sənayeləşən Bakının və ümumilikdə, ölkənin təbii resurslarının çar Rusiyası tərəfindən dağıdıcı xarakterli istismarı bunun əsas səbəbi idi. XX əsrin 20-ci illərində Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra təbiətin istismarı daha geniş xarakter aldı. 1941-1945-ci illər müharibəsi dövründə bütün cəbhəni neftlə, bir çox sənaye və hərbi-sənaye məhsulları ilə təmin edən Azərbaycanda ekoloji tarazlıq kəskin şəkildə pozulmuşdu. Əsrin 50-60-cı illərindən isə ekoloji tarazlığın qorunub saxlanılmasına, ətraf mühitin mühafizəsi məsələlərinə ciddi zərurət yaranmışdı.

XX əsrin 60-cı illərinin sonlarında ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etməyə başlamasından sonra ölkəmizdə ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi, təbiətin və bütün canlı aləmin yaşaması üçün ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Hələ o zaman Naxçıvan ərazisində təbii mühitin unikallığı, maddi-mənəvi sərvətlərin zənginliyi, flora, fauna müxtəlifliyi, bu ərazilərin xüsusi qorunması zəruriliyi nəzərə alınaraq ilk xüsusi mühafizə olunan təbiət ərazisi yaradılmışdı. Bu, ümummilli lider Heydər Əliyevin 1969-cu ildə qəbul etdiyi qərarla yaradılan, sahəsi 40000 hektar olan Ordubad Dövlət Təbiət Yasaqlığı idi. Əsrin 70-ci illərində Azərbaycanda ekoloji təfəkkürün formalaşdırılması prosesinə başlanılmışdır. Bu sahədə qanunvericilik bazası yaradılmış, bir sıra qanun və qərarlar qəbul edilmişdir.

Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra yaranmış böhranlı vəziyyət, ümumilikdə, bütün ölkədə ciddi ekoloji problemlərin üzə çıxmasına da səbəb olmuşdu. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı, Naxçıvan ərazisinə təşkil edilən hücumlar, regionun blokada vəziyyətinə düşməsi, normal enerji və qida təminatının olmaması muxtar respublikanın təbiətinə də təsirsiz ötüşmədi. Nəinki meşələrdə, qoruq və yasaqlıqlarda, hətta park və xiyabanlardakı ağacların istilik təminatı məqsədilə insanlar tərəfindən qırılması, çöl heyvanlarının, quşların plansız şəkildə ovlanması 20 il bundan əvvəlin gözümüzün önündə gerçəkləşən reallıqları idi.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ətraf mühitin qorunması məsələləri, ekoloji problemlərin aradan qaldırılması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Ətraf mühitin qorunması ilə bağlı məsələlər ölkənin Əsas Qanununun – Konstitusiyanın üç maddəsində öz əksini tapmış və bu maddələr ekoloji siyasətin əsas istiqamətlərini təsbit etmişdir. Ölkəmiz ətraf mühitin qorunması ilə bağlı müxtəlif beynəlxalq konvensiyalara qoşulmuş, beynəlxalq təşkilatlarla fəal əməkdaşlığa etməyə başlamışdır.

Qeyd etmək lazımdır ki, 1996-cı ildən sonrakı dövrdə Naxçıvanda əsas diqqət XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində muxtar respublika ərazisində pozulmuş ekoloji tarazlığın bərpasına yönəldilmişdir. Bu istiqamətdə ilk addım isə hələ ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə – 1993-cü ilin 2 aprel tarixində atılmışdı. Ulu öndər Heydər Əliyevin proqram xarakterli ***"Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız. Təbiətə zərər vuranlar, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir"*** fikirlərini əsas götürən muxtar respublika rəhbəri az qala yox olmaq həddinə çatmış meşə sahələrinin bərpasına, yeni yaşıllıqların salınmasına xüsusi diqqət yetirmişdir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, son 18 ildə muxtar respublika ərazisində təkcə dövlət strukturlarının dəstəyi ilə 12 min 350 hektar sahədə yaşıllıqlar – meşə massivləri, meyvə bağları, yaşıllıq zolaqları salınmışdır. Hazırda muxtar respublikanın ümumi ərazisinin 10 faizdən çoxunu yaşıllıqlar əhatə edir. Müqayisə üçün qeyd edək ki, 1990-cı ilin əvvəllərində bu göstərici 0,6 faiz həddində olmuşdur. Muxtar respublikamızın tarixi meyvəçilik ənənələrinə uyğun olaraq, yeni meyvə bağlarının salınması sahəsində aparılan işlər də davam etdirilmiş və son illərdə 1000 hektardan çox sahədə alma, armud, badam, tut, iydə, gilənar, şaftalı, alça, ərik bağları salınmışdır.

Muxtar respublika ərazisində tingçilik təsərrüfatları inkişaf etdirilmiş, yeni təsərrüfatlar yaradılmış, regionun torpaq-iqlim şəraitinə uyğunlaşdırılmış 10 milyon 500 min ədəddən çox müxtəlif növ meşə və meyvə tingləri, həmişəyaşıl və dekorativ ağaclar yetişdirilərək əkin dövriyyəsinə daxil edilmişdir. Muxtar respublika ərazisində tingçilik təsərrüfatlarının yaradılması bir tərəfdən yeni iş yerləri olmaqla əhalinin sosial-rifah halının yüksəldilməsinə, kiçik sahibkarlığın inkişaf etdirilməsinə xidmət edirsə, digər tərəfdən əkilən tinglərin yerli şəraitə uyğunlaşmasında problemləri aradan qaldırır. Çünki sərt kontinental iqlim şəraitinə malik olan Naxçıvanda kənardan gətirilən ağac tinglərinin uyğunlaşması heç də bütün hallarda mümkün olmur.

***"İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. İnsanların sağlamlığına, ekoloji vəziyyətə, uduğumuz havaya, içdiyimiz suya, bütün bunlara biz çox böyük diqqət göstərməliyik",*** – deyən ölkə başçısı cənab İlham Əliyevin prezidentliyi dövründə ölkənin ayrı-ayrı regionlarında yaşayan əhalinin içməli su ilə təminatını daha da yaxşılaşdırılması üçün irimiqyaslı layihələr həyata keçirilmiş, bu işə müxtəlif beynəlxalq təşkilat və qurumların nümayəndələri də cəlb edilmişdir.

Həm sudan səmərəli istifadə, həm də əhalinin içməli su ilə təminatı istiqamətində Naxçıvan Muxtar Respublikasında da irimiqyaslı layihələr reallaşdırılmışdır. Torpaqların münbitliyinin qorunması, sudan səmərəli istifadə edilməsi, ekoloji və iqtisadi səmərəlilik əsas götürülərək ölkə ərazisində ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında damcı üsulu ilə suvarma sistemi yaradılmış və 1000 hektardan çox ərazidə tətbiq edilmişdir.

Muxtar respublika əhalisinin ekoloji cəhətdən təmiz, mövcud standartlara uyğun içməli su ilə təmin edilməsi məqsədilə Arazboyu yaşayış məntəqələrində 6 ədəd modultipli sutəmizləyici qurğular quraşdırılmışdır.

Qafqaz ekoregionunda canlı təbiət muzeyi kimi qəbul olunan Naxçıvanda zəngin fauna və flora müxtəlifliyinə malik olan ərazilərin xüsusi mühafizəsi də ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyildir ki, muxtar respublika ərazisində ilk xüsusi mühafizə olunan təbiət ərazisi 1969-cu ildə yaradılan, ümumi ərazisi 40000 hektar olan Ordubad Dövlət Təbiət Yasaqlığı olmuşdur.

Müstəqillik dövründə xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsi daha da inkişaf etdirilmiş, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə ərazisi 12 min 131 hektar olan Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, ərazisi 3139 hektar olan Şahbuz Dövlət Təbiət Qoruğu yaradılmışdır.

Naxçıvan Qafqaz ekoregionunda transsərhəd çayı olan Araz çayı boyunca ilk xüsusi mühafizə olunan təbiət obyektinin yaradıldığı yer kimi də tarixə düşmüşdür. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamı ilə Qafqaz ekoregionunda transsərhəd çay olan Araz çayı boyunca ilk xüsusi mühafizə olunan təbiət obyekti – "Arazboyu" Dövlət Təbiət Yasaqlığı (ərazisi 9118 hektar) yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 22 iyun tarixli Fərmanı ilə Şərur, Kəngərli, Şahbuz, Babək rayonlarının ərazisində 68 min 911 hektar sahədə "Arpaçay" Dövlət Təbiət Yasaqlığının yaradılması təbiət komplekslərinin, flora və fauna ehtiyatlarının qorunmasına, bərpasına, ekoloji tarazlığın təmin edilməsinə müsbət təsir göstərmişdir. Kiçik Qafqazın Zəngəzur-Dərələyəz dağ silsiləsinin Naxçıvan hüdudlarına aid hissəsini əhatə edən, təbiət komplekslərinin, təbiət və tarixi mədəniyyət abidələrinin yerləşdiyi coğrafi ərazilərdə respublika və beynəlxalq əhəmiyyətli milli parkın yaradılması sahəsində zəruri işlər görülmüşdür. Ekoloji mühitin sağlamlaşdırılması, ekoturizm potensialının inkişaf etdirilməsinin dəstəklənməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə 42 min 787 hektar ərazidə Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, hazırda muxtar respublika ərazisində 1 milli park, 1 qoruq, 3 yasaqlıq fəaliyyət göstərir ki, bu da ümumi ərazilərin 27 faizdən çoxunu təşkil etməklə beynəlxalq normaları xeyli üstələyir.

Naxçıvan təbiətinin nadir fauna növlərinin mühafizəsi və artırılması sahəsində ən mühüm və tarixi əhəmiyyətli qərar 2001-ci ildə muxtar respublika ərazisində ova məhdudiyyətlərin, qadağaların qoyulması olmuşdur. Bu qərar heyvanat aləminin, xüsusilə sayı azalmaqda olan nadir növlərin qorunması, artırılması üçün analoqu olmayan ekoloji tədbir kimi ətraf mühit üzrə beynəlxalq ekspertlər tərəfindən qeyd edilərək başqa ölkələrə nümunə kimi göstərilmişdir. Bu sahədə görülən işlərin müsbət nəticəsi olaraq, muxtar respublika ərazisində mövcud olan fauna ehtiyatları, xüsusilə əvvəllər sayı tükənməkdə olan növlərin sayında 10-15 faizədək artım qeydə alınmışdır.

Nadir və nəslikəsilmək təhlükəsi olan bitki və heyvan növlərinin qeydiyyatının aparılması və xüsusi mühafizə olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən, ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair "Qırmızı kitab"ların hazırlanması sayı azalmaqda olan növlərin qorunub saxlanılmasına, artırılmasına, xüsusi qaydada mühafizə edilməsinə təminat yaratmışdır.

***Beləliklə, ümummilli lider Heydər Əliyevin "Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız" fikrinin əsas istiqamətverici xətt olaraq götürüldüyü Naxçıvanda iqtisadiyyatın inkişafı ilə yanaşı, ekoloji tarazlığı qorumaqla davamlı inkişafın təmin olunması qarşıya qoyulan əsas məqsədlərdəndir. Dayanıqlı inkişaf konsepsiyasının bütün əsas istiqamətləri – iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi, üstünlüyün ətraf mühitin qorunmasına verilməsi, ekoloji problemlərin, ilk növbədə, həll olunması, gələcək nəsillərin imkanları məhdudlaşdırılmadan çağdaş nəsillərin rifahının yaxşılaşdırılması muxtar respublikada həyata keçirilən ekoloji siyasətdə ön xəttə çəkilmişdir.***

**Elnur KƏLBİZADƏ**

# Naxçıvanda quş ətinə olan tələbat yerli istehsal hesabına ödənilir

***İnsanların qida rasionunda ət məhsulları mühüm yer tutur. Heyvan, balıq və quş ətinin müxtəlif qidalandırıcı maddələr, vitamin və yağlarla zəngin olması onlarla qidalanmanı müxtəlifyaşlı insanların sağlamlığı üçün zəruri edir. Bu xüsusən qış aylarında insan orqanizminin vitamin və enerji ehtiyacının ödənilməsi üçün çox vacibdir. Zülal və mineral maddələrlə zəngin olan quş əti isə xüsusən uşaqlar üçün daha çox faydalıdır.***

Naxçıvanda quş ətinə olan tələbatın ödənilməsi üçün yaradılan broyler müəssisələri əhalinin bu vacib ərzaq məhsulları ilə təmin olunmasında mühüm əhəmiyyət daşıyır. Muxtar respublikamızda bu sahədə idxaldan asılılığın azaldılması və bazarın daha keyfiyyətli yerli məhsullarla təmin olunması məqsədilə yaradılmış broyler müəssisələri qısa müddət ərzində əhali tələbatını ödəyə biləcək səviyyədə istehsal gücünə çataraq bazara lazım olan həcmdə məhsul istehsalını təmin edirlər.

Muxtar respublikamızda fəaliyyət göstərən quşçuluq müəssisələrindən biri də "Ləzzət Broyler" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Bu müəssisə 2011-ci ilin noyabrından fəaliyyət göstərir. Türkiyə mənşəli müasir avadanlıqların quraşdırıldığı müəssisədə 31 nəfər işlə təmin olunmuşdur. İstehsal gücü saatda 1500 baş olan müəssisədə müxtəlif çeşidlərdə quş əti istehsal edilir. Mağazaların vitrinlərində, dondurucularda "Ləzzət" etiketi ilə qablaşdırılmış bütöv toyuq, içalat, bud, qanad və sinə kimi broyler məhsulları artıq alıcılarımıza yaxşı tanışdır. Alıcıların tələbatına cavab vermək üçün müəssisədə qəbul olunmuş istehsal standartlarına ciddi diqqət yetirilir. Belə ki, müəssisədə quş ətinin çəki normasından tutmuş adi gigiyenik tələblərə qədər bütün şərtlər daim nəzarət altında saxlanılır. "Ləzzət Broyler" MMC-nin istehsal etdiyi quş ətinin keyfiyyəti daim nəzarətdə saxlanılır. Bu məqsədlə istehsal olunmuş məhsuldan götürülən nümunələrin müntəzəm olaraq "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin laboratoriyası tərəfindən analizi həyata keçirilir.

Qeyd edək ki, muxtar respublikada "Ləzzət Broyler" MMC ilə yanaşı, bir çox quş əti istehsalçıları da fəaliyyət göstərirlər. Onların fəaliyyətini koordinasiya etmək və yaranan problemləri həll etmək məqsədilə cari ilin 22 noyabrında Quşçuluq Birliyi yaradılmışdır. Birliyin tərkibinə daxil olan müəssisələr muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün öz fəaliyyətlərini genişləndirirlər. Bu məqsədlə birliyə daxil olan broyler məhsulları istehsalçıları bir araya gələrək regionda quş əti və yumurta istehsalı ilə bağlı qarşıda duran məsələləri birgə müzakirə edirlər. Belə görüşlərdə muxtar respublikada fəaliyyət göstərən quşçuluq müəssisələri qarşısında duran cari problemlərə toxunulur, istehsal olunan məhsulun maya dəyəri, satışı, reklamı ilə bağlı məsələlər haqqında fikir mübadiləsi aparılır. Muxtar respublikaya kənardan müxtəlif yollarla gətirilən broyler məhsullarının yerli istehsalçıların işinə yaratdığı çətinliklər, broyler müəssisələrinin damazlıq yumurta və ətlik cücəyə olan tələbatlarının ödənilməsi quş əti istehsalçılarının cari qayğılarından olub, gələcəkdə koordinasiya əlaqələrinin genişləndirilməsi və istehsal olunmuş məhsulların ixracı məsələləri də onların diqqət mərkəzindədir.

**Əli CABBAROV**

***Bu gün muxtar respublikada qazanılan uğurlarda yüksək peşə vərdişlərinə və əqli potensiala malik gənclərin də rolu vardır. Çünki gənclik daim axtarışda olan, yeniliyi sevən, yeni ideyalarla yaşayan bir qüvvədir. Gənclərimiz yaradılmış imkanlardan yararlanmaqda maraqlıdırlar və bu səbəbdən onlar cəmiyyətin inkişaf prosesinin avanqardına çevriliblər. Uzağa getməyək. Muxtar respublikanın müxtəlif yüksək idarəetmə orqanlarında, müxtəlif peşə və sənət sahələrində gənclərimizin nəzərəçarpacaq dərəcədə uğurlara nail olması bu günün reallığıdır. Bu sırada gənc həkimlərimiz xüsusi qeyd edilməlidir. Bu yazımızda onlardan biri haqqında danışmaq istəyirik.***

# Azərbaycan Tibb Universitetinin ilk ürək cərrahı naxçıvanlıdır

## *İntiqam Fətullayev bununla qürur duyur*



İntiqam Fətullayevin adı səhiyyə sahəsində yaxşı həkim kimi çəkilir. Gənc yaşlarında belə nüfuz qazanmaq hər ağ xalat sahibinə qismət olmur. Onu da qeyd edim ki, İntiqam həkim peşəsi ilə əlaqədar 4 ildir, Bakı şəhərində ixtisasartırma təcrübəsi keçir. Bir ildən sonra doğma Naxçıvana qayıdacaq. İndiyə qədər apardığı əməliyyatların çoxunun ünvanı Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi olub. Onun növbəti əməliyyatlar üçün Naxçıvana gəldiyini eşidəndə bu istedadlı həkimlə görüşmək istədik.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində onun üçün ayrılmış otağın qapısında xeyli adam var. Gözləməli oldum. Növbə gözləyən insanların gözləri diqqətimi cəlb etdi. Bu gözlərdə həkimdən kömək diləyini hiss etmək çətin deyildi.

Budur, İntiqam həkim qarşımdadır. Gözləri yorğun, amma ona müraciət edənləri dinləməyə həvəslidir. Qısa söhbətdən sonra öyrənirəm ki, 1983-cü ilin noyabr ayında Şahbuz rayonunun Keçili kəndində anadan olub. 2000-ci ildə həmin kəndin orta məktəbini fərqlənmə attestatı ilə bitirib. 620 balla Azərbaycan Tibb Universitetinin Müalicə-profilaktika fakültəsinə qəbul olunub. Universiteti ürək-damar (kardiovaskulyar) cərrahı kimi bitirib. 2008-ci ildən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində cərrah-həkim kimi fəaliyyət göstərir.

Həkimlik peşəsi çətin və məsuliyyətli olduğu kimi, bu peşəyə yiyələnmək də bir o qədər asan deyil. Bu arzuya çatmaq üçün enişli-yoxuşlu elm və təcrübə yollarından keçməlisən, rastlaşdığın məhrumiyyətlərə dözməlisən. Bunları İntiqam həkim deyir. Bu gün yuxusuz gecələrin və inadkarlığın bəhrəsi kimi ağ xalatı qürurla geyinən həkim söhbətə davam edir:

– Hələ uşaq yaşlarımda böyüyəndə həkim olacağımı qərarlaşdırmışdım. O vaxtlar kəndimizdə gördüyüm xəstələr, onların keçirdiyi ağır anlar mənə də təsir edirdi. Xüsusən də infarkt keçirən insanları gördəndə özümə yer tapa bilmirdim. O vaxt bu sahə ölkəmizdə o qədər də inkişaf etməmişdi. Düşünürdüm ki, axı bunun bir yolu olmalıdır. 50 yaşına çatmamış ölən insanların ürəklərindəki problemlərin çarəsi mütləq tapılmalıdır. Mən Azərbaycan Tibb Universitetinə qəbul olunarkən bu təhsil ocağından ürək-damar (kardiovaskulyar) cərrahı hələ məzun olmamışdı. Bilirdim ki, mənim üçün çətin olacaq. Ancaq başda Rəşad həkim olmaqla digər həkimlərin dəstəyi ilə arzuma çatdım. Universitetin ürək-damar cərrahı kimi ilk məzunu oldum. Naxçıvana gələndə isə çox sevinirdim. Düşünürdüm ki, öz doğma torpağımda ilk ürək cərrahı kimi fəaliyyətə başlayacaq, bu sarıdan problemi olan insanların sağlamlığına xidmət edəcəyəm.

***– Artıq Bakıda kursunuzun başa çatmağına az qalıb. Bir ixtisaslı mütəxəssis kimi Bakıda və hansısa xarici ölkədə işləmək planınız yoxdur ki?***

– Əsla. Ən yaxşı və sədaqətli peşə sahibi xalqına, millətinə xidmət edəndir. Bakı şəhərində bu sahə üzrə xarici dövlətlərdə təhsil alıb fəaliyyət göstərən həkimlərimiz az deyil. Mən Naxçıvandan başqa yerdə fəaliyyət göstərə bilmərəm. Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkimi olmaqdan qürur duyuram. Mən bura kənar yerlərdən gələn həkimlərin burada yaradılan şəraitə necə heyran olduqlarını görürəm. Bu səhiyyə ocağı ən müasir tibbi avadanlıqlarla təchiz olunub. Bunlarla işləyən gənc həkimlərə ehtiyac var. Ürək-damar cərrahına isə xüsusi ehtiyac duyulur. Bu halda mən kənarda işləmək arzusunda necə ola bilərəm? Məlumdur ki, hər il Mərkəzi Neftçilər Xəstəxanasının tibb heyəti burada ürək əməliyyatları həyata keçirir. Bu əməliyyatlarda mən də iştirak edirəm. Artıq kursun bitməyinə az müddət qalır. Onu deyim ki, ürək əməliyyatı bir həkimlə aparılmır. Bu, komanda işidir. Təbii ki, ən yüksək məsuliyyət əməliyyatı aparan həkimin üzərinə düşür. Gələcəkdə belə bir komanda ilə Naxçıvanda fəaliyyətə başlayacağam.

Söhbətimizə davam edirik. Bildirir ki, müəllimlərimizdən biri deyir: əməliyyatda xəstənin ürək döyüntüsü azalır, ancaq həkimin həyəcandan ürək döyüntüsü çoxalır. Ürək insanda ən həssas və möcüzəli orqandır. Bu möcüzəli orqanı bütün detalları ilə kəşf etməyi qarşıma məqsəd qoymuşam. Müasir dövrün həkimi dərin elmi biliyə malik olmalı, daim mütaliə etməli, dünya səhiyyəsinin qazandığı ən son uğurları mənimsəməli, bu yenilikləri milli təbabətimizə tətbiq etməyə çalışmalıdır.

İntiqam həkim oxucularımıza məsləhət verməyi də unutmur. Deyir ki, hər insan müntəzəm olaraq ürəyinin sağlamlığının qeydinə qalmalı, mütəmadi olaraq həkimə müraciət etməlidir:

– Bu yaxınlarda bir xəstəm var idi. Ürəyindən heç bir şikayəti yox idi. Sadəcə, ürəyini yoxlatmaq üçün müraciət etmişdi. Analizlər, EXO kardioqrafiya edildi. Bir neçə problem göründü və onu angioqrafiya etməli olduq. Ürək damarında daralmalar müşahidə etdik. Əgər bunu gec bilsəydi, o, infarktla üz-üzə qala bilərdi. Əməliyyatdan sonra artıq heç bir problemi qalmayıb. Normal həyatına davam edir. Demək istədiyim odur ki, bu gün Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində hər cür şərait var. Vaxtında sağlamlığımızın qeydinə qalmaqla əksər həyat risklərini qabaqlamış oluruq.

***Bir saatlıq söhbətdən və qeydlərimi götürdükdən sonra artıq İntiqam həkimin daxili dünyasına az da olsa, bələd idim. Düşünürdüm ki, ömürlərə ömür calayan bu yazının qəhrəmanını hələ neçə-neçə yuxusuz gecələr və narahat günlər gözləyir. Bu gecələrdə, narahat anlarda möcüzələr yaranır – insan həyata qaytarılır. Və yenə də düşünürəm ki, bu möcüzələri yaradan parıltısından üşütmə tutduğumuz bir barmaq neştər deyil, həkimlərimizin ürək çırpıntılarıdır, bir də onların "soyuq silah"larını tutduqları şəfalı əlləri, zəhmət təridir. Elə bu əzmkarlığın ahəngindən yaranır həyat ritmi. İntiqam həkimin belə möcüzəli anlar yaşayacağı günlər çox olacaq.***

✍ **Sara ƏZİMOVA**

# Şagirdlərin dərsə davamiyyəti müzakirə edilib

***Culfa Rayon Təhsil Şöbəsində "Şagirdlərin dərsə davamiyyətinə təsir göstərən amillər" mövzusunda yığıncaq keçirilib. Yığıncaqda təcrübəli pedaqoqlar, məktəb psixoloqları, təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.***

Tədbiri giriş sözü ilə Culfa Rayon Təhsil Şöbəsinin müdiri Adəm Qasımov açıb.

Qeyd edilib ki, bir neçə il bundan əvvəl məktəblərin istilik sisteminin bərbad vəziyyətdə olması qış aylarında şagirdlərin dərsə davamiyyətinə mənfi təsir göstərən amillər sırasında birinci yeri tuturdu. Ancaq son illərdə muxtar respublikada, eləcə də Culfa rayonunda həyata keçirilən qurucuyluq tədbirləri çərçivəsində bütün bu problemlər tamamilə aradan qaldırılıb. Yəni şagirdlərin dərsdən yayınmaları üçün heç bir səbəb ola bilməz.

Bildirilib ki, şagirdlərin təhsilə davamiyyəti, ilk növbədə, valideyn məsuliyyəti və məktəblərdə davamiyyətə olan nəzarət işlərinin təşkili ilə birbaşa əlaqədardır. Uşaqların təhsildən yayınmasına şərait yaradan əsas amillər kimi valideynlərin uşaqların təhsilə olan davamiyyətinə az diqqət yetirməsi və məlumatsızlığını qeyd etmək olar. Bundan başqa, məktəblərdə davamiyyətə bağlı qeydlərin aparılmasına da ciddi diqqət yetirilməli və bu işə nəzarət artırılmalıdır. Şagirdlərin dərsə davamiyyətinə bilavasitə məktəb rəhbərləri cavabdehdirlər. Onlar davamiyyətə gündəlik nəzarət etməli, belə uşaqların valideynləri ilə görüşüb dərsdən yayınmanın səbəblərini araşdırmalı və müvafiq tədbirlər görməlidirlər.

Sonra mövzu ətrafında müzakirələr aparılıb.

✍ **Səbuhi HÜSEYNOV**

# Təqdimat mərasimi keçirilmişdir



***Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında professor Vidadi Muradovun "Naxçıvan xalçaçıları" adlı kitabının təqdimat mərasimi keçirilmişdir. Tədbiri giriş sözü ilə kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova açaraq "Xalçaçılıq xalqımızın qədim sənətkarlıq növüdür" mövzusunda məruzə etmişdir.***

Tədbirdə Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Zəminə Gülməmmədovanın"Naxçıvan Xalça Muzeyinin yaranması və inkişafı" mövzusunda çıxışı olmuşdur.

Kitabxananın İnformasiya-resurs şöbəsinin müdiri Xəyalə Ağayeva "Naxçıvan xalçaçıları" kitabının məziyyətlərindən danışmışdır. Qeyd olunmuşdur ki, "Azərbaycan xalçaları bütün məktəbləri ilə" adlı böyük layihənin davamı olan kitab 2013-cü ildə Bakı şəhərindəki "Elm" nəşriyyatında çap edilmişdir. Kitabın üz qabığında Naxçıvan xalçalarının Qarabağlar türbəsi biçimində təsviri verilmişdir. Kitabda bütövlükdə Naxçıvanın tarixi inkişafı və mədəni nailiyyətləri nəzərdən keçirilmiş, Naxçıvan xalçalarının ümumi xarakteristikası, Naxçıvan xalçaçıları haqqında məlumat və fotoşəkillər, dünyanın bir sıra şəxsi kolleksiyalarında saxlanılan Naxçıvan xalçaları təqdim olunmuşdur. Azərbaycan, rus və ingilis dillərində nəşr edilən bu nəfis tərtibatlı kitabı ekspedisiya materialları, muxtar respublikanın 7 rayonunun 68 kəndindən 254 toxucu haqqında məlumatlar daha da zənginləşdirir. Kitabda Şahbuzdan 31, Şərurdan 58, Babəkdən 49, Culfadan 37, Sədərəkdən 8, Kəngərlidən 35, Ordubaddan 36 toxucunun həyat və fəaliyyəti, habelə qədim abidələrdən, Gəmiqaya qayaüstü təsvirlərdən, şəxsi fantaziyalardan, yerli adət-ənənələrdən, inanclardan qaynaqlanan naxış-ornament, kompozisiya üslubu işıqlandırılmışdır. 151 səhifədən ibarət olan kitabda yuxarıda adlarını sadaladığımız rayonlarda yaşayıb xalçaçılıqla məşğul olanların toxuduqları xalçaların fotoşəkilləri öz əksini tapmışdır.

Tədbirə kitabxananın direktoru Aytəkin Qəhrəmanova yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

# "Neftçala" – "Araz-Naxçıvan" matçının pərdə arxası



Futbol üzrə Azərbaycan I divizionunun 14-cü turu çərçivəsində keçirilən "Neftçala" – "Araz-Naxçıvan" qarşılaşması, gözlənildiyi kimi, gərgin mübarizə şəraitində keçib. Neftçalaya səfərə saatlar qalmış matçın keçiriləcəyi yeri Bakı şəhərinə dəyişən rəqib komanda eyni zamanda istəyini də reallaşdırmış oldu. "Araz-Naxçıvan" futbol komandasının stadionu təbii ot örtüyünə malikdir və komanda bütün məşqlərini burada keçirir. Təbii ki, gözlənilmədən süni meydançada keçirilən matç futbolçuların da oyununa mənfi təsir göstərdi. İşin inzibati tərəfində üstünlüyü ələ alan "Neftçala" futbol komandası oyun zamanı hakimin də ədalətsiz qərarları əsasında meydanı qalib kimi tərk etdi.

Referi Fariz Yusifovun matç boyu gülünc qərarları "Bayıl Arena"ya toplaşmış azarkeşlərin də diqqətindən yayınmadı. Hadisələrin kulminasiya nöqtəsi isə ikinci hissənin ortalarına təsadüf etdi. Meydan sahiblərinin hesabı açmasından sonra vaxt oğurluğu prinsipi ilə oynamaları, eyni zamanda meydançada kobudluğa daha çox üstünlük vermələri F.Yusifovun fitini "susdurdu". Son 10 dəqiqədə neftçalalıların 9 nömrəli futbolçusu Aslan Hüseynovun dilinə gətirdiyi nalayiq sözlər sıravi fanatların belə, qulaqlarını cingildətdi. Bu halın baş verdiyini oyunun videoyazısında da görmək mümkündür. Rəqibin kobud sözlərinə futbolçumuz Eşqin Quliyev sakit tərzdə cavab versə də, baş hakim ilk olaraq E.Quliyevi meydandan uzaqlaşdırdı. Ardınca öz səhvini ört-basdır etmək üçün Aslan Hüseynova da eyni aqibəti yaşatdı. Son hücumlarımızın birində isə çox qəribə bir nüans yarandı. "Neftçala"nın futbolçularından biri zədələnərək meydanı xərəkdə tərk etdi. Bu zaman meydan sahibləri əvəzetmədən istifadə edərək 4 nömrəli futbolçu Orxan Məmmədovu meydana buraxdılar. Ancaq onun əvəzlədiyi 7 nömrəli futbolçu Nakim Vəliyev meydanı tərk etmədi. Halbuki əvəzetmə zamanı stadionun radiouezelindən bu dəyişiklik anons edilmişdi. Məşqçilər korpusumuzun etirazlarından sonra baş hakim Fariz Yusifov 4-cü hakim Etibar Həsənova yaxınlaşaraq məsələyə aydınlıq gətirdi. Yalnız bundan sonra rəqibin əvəzlənən oyunçusu meydanı tərk etdi.

Bununla yanaşı, Fariz Yusifovun oyunun əsas hissəsinə əlavə etmiş vaxtın az olması diqqətdən yayınmadı. Çünki ikinci hissədə "Neftçala" futbolçularının tez-tez simuliyasiya etməsi ən azından oyunun əsas vaxtının 9 dəqiqəsini almışdı. Buna baxmayaraq, əlavə edilən 5 dəqiqə hakimin matçı necə idarə etdiyinin bariz nümunəsidir. Əgər Fariz Yusifovun səhvlərinə göz yumularsa və o, qarşıdakı ilk 7 turun oyunlarına təyinat alarsa, o zaman bu haqsızlığı "Araz-Naxçıvan"a qarşı təxribat kimi qiymətləndirmək olar.

İntizam Komitəsi dünən oyunda qırmızı vərəqə alan futbolçularla bağlı qərarını açıqlayıb. Belə ki, rəqibin iki futbolçusu – Tanrıverdi Məhərrəmli və Aslan Hüseynova 3 oyunluq cəza verilib. Maraqlısı odur ki, futbolçumuz Eşqin Quliyev də eyni aqibətlə üzləşib. 9 nömrəli yarımmüdafiəçimiz hakimin ədalətsiz qərarından sonra qarşıdakı 3 turu buraxmalı olacaq. Ancaq hakimlərin hansı cəza ilə üzləşəcəyi hələ də məlum deyil.

Məsələ ilə bağlı "Araz-Naxçıvan" futbol komandasının quruma etiraz edəcəyi gözlənilir.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Məmmədov Fərahim Vaqif oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin kollektivi Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanovaya, anası **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan şəhərindəki 8 nömrəli tam orta məktəbin direktoru Sevinc Səfərova və məktəbin kollektivi iş yoldaşları Cəvahir Cəfərovaya, qardaşı **MƏMMƏDƏLİNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 3940. Sifariş № 1140**